# 100 il öncə...



**Cavanşir Feyziyev**
**Millət vəkili,**
**fəlsəfə doktoru**

**Bütün millətlər bir-birindən özünəməxsus keyfiyyətləri ilə fərqlənir. Onlar sadəcə fiziki, antropoloji, mədəni xüsusiyyətlərinə görə deyil, bəzən öz keçmişinə münasibəti ilə də öz xarakterini açır, kimliyini ortaya qoyurlar.**

Türkləri öz tarixi ilə birləşdirən - əbədi və yenilməz bir Zəfər duyğusudur. Türk tarixində belə zəfərlərin sayı çoxdur, onların ən möhtəşəmi isə bütün dünya türklüyünün artıq 100 ildir ki, böyük coşqu ilə yaşadığı Canaqqala Zəfəridir.

Ermənilər üçünsə tarix özgə torpaqlarında qurulması düşünülmüş "böyük Ermənistan" xülyasından, "erməni soyqırımı" əfsanəsindən və bu sindromun yaratdığı kütləvi psixozdan ibarət ağır bir yükdür. Hiyləgərlikdən, xəyanətdən və terrorçuluqdan yoğrulmuş bir tarixin yükü altında daim əzilən, alçalan ermənilər də artıq 100 ildir ki, özlərinin şərəfsizlik tarixindən əl çəkə bilmirlər.

24 aprel 2015-ci ildə böyük türk dünyası Çanaqqala savaşının, ermənilər isə "soyqırımı tarixinin" 100 illiyini qeyd edəcəklər: bir xalq tarixi zəfərindən qürur duyacaq, bu qalibiyyətin ümumdünya əhəmiyyətini beynəlxalq səviyyədə bir daha təsdiqləyəcək, digəri isə yenidən "əzabkeş xalq" rolunu riyakarlıqla oynayacaq, xəyanət tarixinin matəminə toplaşacaq və özünə "siyasi və maddi sədəqə" toplamağa çalışacaq...

Birinci Dünya müharibəsinin (1914 – 1918) ən dramatik hadisəsi sayılan Çanaqqala savaşı hərb və siyasət tarixinin unikal epizodlarından biridir: 100 il öncə (1915 – 1916) Çanaqqalada elə bir savaş oldu ki, o Yer üzündə yeganə müstəqil türk dövlətinin "olum, ya ölüm" məsələsini həll etməklə yanaşı, imperializmin planetar hökmranlıq çarpışmalarında Qərb – Şərq münasibətlərinə də aydınlıq gətirdi - ikincinin birinciyə heç zaman müstəmləkə olmayacağı qətiyyətini ortaya çıxardı.

XX əsrin əvvəllərində dünyanın yenidən bölüşdürülməsi uğrunda Avropanın aparıcı dövlətləri iki hərbi-siyasi blokda – Antanta (İngiltərə, Fransa, Rusiya imperiyaları) və İttifaq dövlətlərində (Almaniya, Avstriya-Macarıstan, Osmanlı imperiyaları) qütbləşərək üz-üzə gəlmişdi. Qlobal qarşıdurmanın əsas tərəfləri Almaniya və Böyük Britaniya idi. O zaman yer kürəsinin bir çox qitələrində, əsasən də, Asiyada geniş müstəmləkələri olan Böyük Britaniya və onun müttəfiqləri müharibə yolu ilə Almaniyanı zəiflətmək, onun müstəmləkə ərazilərini ələ keçirmək, Avropa üçün davamlı təhlükə hesab edilən Osmanlı imperiyasını birdəfəlik çökdürərək, Şərqdə hələ böyük torpaqlara sahib olan bu qoca imperiyanın ərazilərini öz aralarında bölüşdürmək niyyətində idilər. Nəhənglərin döyüşündə rəqibə arxadan zərbə vurmaq üçün yerinə yetirilməsi vacib olan xəyanət missiyası da var idi ki, bu da Osmanlı təbəələri olan ermənilərə həvalə olunmuşdu. Xəyanət müqabilində uğurlu savaşdan sonra türk torpaqlarında öz dövlətini yaradacağına ümid edən xain ermənilər bu şərəfsiz missiyanı həvəslə qəbul etmiş, hələ savaş ərəfəsində artıq ilk addımlarını atmışdılar. Van əyalətində üsyana qalxmış, Şərqi Anadolunun 2.200.000-dən çox türk əhalisinin böyük bir qismini qətlə yetirmiş, onlardan yalnız 600.000 nəfəri ölkənin içərilərinə doğru qaçaraq, qurtula bilmişdilər. Xəyanət isə tükənmək bilmirdi, hələ savaşın ən qızğın mərhələsində o öz murdar sifətini bir daha göstərəcəkdi.

Beləliklə, böyük güclərin toqquşma arenasında öz tarixinin ən zəif dövrünü yaşayan Osmanlı imperiyası dünyanın ən qüdrətli dövlətinin – Böyük Britaniyanın və onun müttəfiqlərinin hərbi donanması və orduları ilə öz torpağında – Çanaqqalada üz-üzə gəlmişdi.

Dərin ziddiyyətlər içərisində boğulan Osmanlı Türkiyəsinin Çanaqqala cəbhəsindəki ordusu bütün ciddiliyi ilə dərk edirdi ki, özünü məhz bu döyüşdə fəda etməsə, Vətənsiz qalacaq. Geriyə yol yox idi.

1915-ci ilin 18 martında başlayan və aprelin 23-24-də ölüm-dirim mübarizəsinə çevrilən Çanaqqala savaşında türk ordusu dəniz və quru döyüşlərində, bəlkə də hərb sənətində spartalılardan sonra tarixin ən parlaq şücaətini göstərdi. Tarixin bu həlledici anında türk əsgərləri güclü düşmən qüvvələri önündə canları ilə Vətən torpağına sipər çəkdilər. Antanta qüvvələri çox böyük itki ilə geri çəkilməyə məcbur oldu.

Birinci Dünya müharibəsində on ayrı cəbhədə vuruşmaq məcburiyyətində qalan Osmanlı ordusu türk vətəninin bütövlüyünü məhz Çanaqqala cəbhəsində zəfər çalmaqla qoruya bildi, ölkəni parçalamağa qəsdlənmiş düşmən ordusuna İstanbula daxil olmağa imkan vermədi.

Müharibə bitəndən sonra, bütün baş verənləri soyuq ağılla araşdıran tarixçilər və siyasətçilər bu qənaətə gəlirdilər ki, əslində, bütün ilkin şərtlərə görə, Osmanlı ordusunun həmin müharibədə məğlubiyyəti qaçılmaz idi. Bəs ona zəfər qazandıran nə oldu? – Yalnız türk əsgərinin yenilməzlik və fədakarlıq ruhu, öz haqqını müdafiə etmək qətiyyəti, dərin kökləri ilə ulu torpağa bağlı Vətəndaşlıq Əxlaqı!

Bu il 100 illiyi anılacaq Çanaqqala savaşı türk tarixinin şərəf anı və eyni zamanda, bütün millətlər üçün azadlıq və müstəqillik uğrunda yenilməz mübarizənin örnəyi kimi, regionda və dünyada baş verən sonrakı hadisələrə də təsir edəcək nəticələri ilə birlikdə, dünya tarixinin ən önəmli hadisələrindən biridir.

Birinci Dünya müharibəsinin gedişində məhz Çanaqqalada baş verən dönüş trayektoriyası o zamankı dünya siyasətində müəyyən dəyişiklikləri meydana gətirdi:

**1.** Çanaqqala cəbhəsində Osmanlı Türkiyəsinə savaş açmış dünyanın iki nəhəng dövləti – Böyük Britaniya və Fransa birlikdə yarım milyondan çox canlı hərbi qüvvəsinin, demək olar ki, yarısını itirdi. Bu proses "Antanta"nın qüdrətini sarsıtdı.

**2.** Osmanlı Türkiyəsinə düşmən olan "Antanta"nın üçüncü nəhəng dövləti – Rusiya imperiyası Asiya və Avropanı birləşdirən boğazlardan keçmək imkanından və müttəfiqlərinin yardımından məhrum olduğundan, hərb meydanlarında geniş manevr imkanlarını itirdi, onun "isti dənizlərə" çıxmaq xülyası birdəfəlik puça çıxdı. Savaşdan sonra ölkədə daxili ictimai-siyasi vəziyyət kəskinləşdi, beləliklə, bu proses Çar Rusiyasının çökməsinə və rejim dəyişikliyinə zəmin yaratdı.

**3.** Çanaqqala zəfəri Birinci Dünya müharibəsinin başlanğıcından sonunadək Osmanlı dövlətinə Aralıq dənizi və Qara dənizi birləşdirən boğazları bağlamaq, düşmən qüvvələrini bu "həyat yollarında" hərəkətdən məhrum etmək imkanı yaratdı və açıqca göstərdi ki, Osmanlı Türkiyəsinin ərazisindəki boğazların sahibi qeyd-şərtsiz olaraq onun özüdür.

**4.** Beləliklə, Qərb imperializminin Osmanlı Türkiyəsini parçalamaq və bu dövlətin varlığına son qoyub Anadolu üzərindən birbaşa Şərqə doğru irəliləmək niyyətləri alt-üst edildi.

**5.** Çanaqqala savaşındakı zəfər - türk millətinin əski zamanlardan qurtuluşunun və yeni tarix üçün səfərbər olmasının, özünüdərkinin və dirçəlişinin başlanğıcı oldu.

**6.** Çanaqqala zəfəri – Balkan müharibələrindəki məğlubiyyətlər səbəbindən sarsılmış Osmanlıda daxili və xarici siyasətin yenidən güclənməsinə şərait yaratdı. Həmin durumu Mustafa Kamal Atatürk belə dəyərləndirmişdi: "Balkan müharibələrində alnımıza sürtülən ləkəni Çanaqqalada təmizləyə bildik..."

Bəs ermənilərin aqibəti necə oldu?

Əsrlər boyu türklərə qarşı vuruşan çar Rusiyası hələ 1-ci dünya müharibəsindən də 100 il öncə İrandan və Suriyadan gətirdiyi erməniləri çoxsaylı rus-türk savaşlarında ələ keçirdiyi türk torpaqlarında – Azərbaycanın qərbində, Osmanlı sərhədlərində və Qarabağ bölgəsində yerləşdirməyə başlamışdı. İrəvan xanlığında sərhədyanı bölgələrdə məskunlaşdırılmış ermənilər vasitəsilə sərhədin o biri üzündə - Osmanlı ərazisindəki bölgələrdə yaşayan ermənilərlə təmas yaradılmış, gələcək qarşıdurmalarda Osmanlı daxilindəki ermənilərdən türk ordusuna qarşı istifadə etmək planlaşdırılmışdı. Qərbdən Şərqə materik boyunca Avrasiyanın bütün cənub zolağını qurşaqlayan ucsuz-bucaqsız türk ərazilərini parçalamaq və hissələrə bölmək kimi məkrli bir plan təkcə çar Rusiyasının deyil, eləcə də Avropa və ABŞ siyasətinin də maraqlarına uyğun idi. Məhz buna görə bədbəxt ermənilər Osmanlı İmperiyasının məhvinə inanır və onun torpaqlarında özlərinə dövlət qurmaq üçün istənilən missiyanı canla-başla yerinə yetirməyə hazır idilər. Hələ 1870-ci illərdən başlayaraq zaman-zaman baş qaldıran erməni üsyanları Osmanlı imperiyasının zəiflədilməsi üçün düşünülmüş planın ilkin fazası idi. Lakin Osmanlı imperiyası həmin üsyanların iştirakçılarını bağışlayaraq bölgədə sabitliyin bərqərar olması üçün xoş məram nümayiş etdirmişdi.

Regionda siyasi və hərbi üstünlüyünü hər vəchlə təmin etməyə çalışan Qərb dairələri və Rusiya üçün erməni kartı əvəzsiz vasitə kimi göründü.

Osmanlı ordusunun 1915-ci ildə Sarıqamışda erməni xəyanətinə uğraması orduda xidmət edən erməni hərbi birliklərinin tərki-silah edilməsini zəruri etdi. 1915-ci ilin mayında isə qəbul olunmuş digər bir qərara əsasən, dövlət təhlükəsizliyinin təmin edilməsi və Şərqi Anadoluda separatçı meyillərin qarşısının alınması məqsədi ilə 400 min erməni sərhədyanı bölgələrdən ölkənin içərilərinə doğru köçürülməyə məruz qaldılar. Bu zaman köç dəstələrinin yolu vaxtilə ermənilərin Şərqi Anadoludan kütləvi qətlər törətməklə qovub çıxardıqları türklərin yeni məskunlaşdıqları ərazilərdən keçməli idi. Köçürülən ermənilərin jandarm qüvvələri tərəfindən müşayiət olunmasına baxmayaraq, türk köçkünlərin qisasçıları ara-sıra erməni köçünə hücumlar edir və bir müddət əvvəl ermənilər tərəfindən öldürülmüş yaxınlarının qisasını almağa cəhd göstərirdilər. Ona görə də köçürülməyə məruz qalmış xainlərin bir qisminin tələf olması qaçılmaz idi.

Bütün gözlənilənlərin əksinə olaraq, Çanaqqala savaşında türklərin möhtəşəm Zəfəri hadisələrin gedişini tamamilə dəyişdi. Antantanın Osmanlı imperiyasını məhv etmək planları və ermənilərin də Osmanlı xarabalıqları üzərində özlərinə "böyük Ermənistan" yaratmaq xülyaları iflasa uğradı. Elə həmin zamandan matəmə bürünmüş ermənilər hələ də reallaşmayan xəyallarına yas tutmaqda davam edirlər.




Buna baxmayaraq, müttəfiq güclər erməni əlaltılarının "qəhrəmanlığını" (oxu: xəyanətini) mükafatlandırmağı da unutmadılar. Türkiyəyə dişi batmayan və nəticədə öz məqsədlərinə nail ola bilməyən Qərb və Rusiya ermənilər üçün Azərbaycanın İrəvan xanlığı ərazisində Ermənistan adlı oyuncaq dövlət yarada bildilər. Bununla yanaşı, havadarları tərəfindən ermənilərin "kütləvi qırğını" iddiası ortaya atıldı və bu günədək buna hüquqi don geyindirmək üçün çoxsaylı cəhdlər edilməkdədir.

Ermənilərin Qarabağa köçürülmələrinin 150 illiyinə həsr etdikləri abidə Qafqazda erməni tarixinin nə qədər "dərin köklərə" malik olduğunu göstərən faktdır. Uydurma erməni iddialarına qarşı tutarlı əks-arqument kimi görünən bu abidənin elə ermənilərin özü tərəfindən məhv edilməsi də onların real tarixə deyil, özlərinin uydurduqları saxta tarixə nə qədər bağlı olduqlarını göstərir. Bir çox məşhur tarixçilər, siyasi analitiklər də öz araşdırmalarında erməni soyqırımı iddialarının real tarixi faktlara əsaslanmadığını dönə-dönə bildiriblər. Məsələn, 1915-ci il hadisələri barədə çoxlu tədqiqatlar aparmış Amerika tarixçisi Bernard Lyuis uydurma erməni soyqırımını "tarixin erməni versiyası" adlandırır. Fransız tarixçisi və hüquqşünası Jorj dö Malevil isə dünyanın bir çox arxivlərində uzunmüddətli araşdırmalardan sonra belə nəhəng bir yalanın uydurulması və ictimai şüura sırınması cəhdlərinə təəccübünü gizlədə bilmirdi.

24 aprel tarixində böyük türk dünyası Çanaqqala Zəferinin 100 illiyini, ermənilər və onların diasporu isə saxta "soyqırımı" tarixinin 100 illiyini qeyd edəcəklər. Çanaqqala savaşındakı qələbə bütün dünya dövlətlərinin etiraf etdiyi kimi, 100 il bundan öncə müstəmləkə imperializmi siyasətinə qarşı dünya xalqlarının mübarizəsinə başlanğıc və ruh verən ümumdünya əhəmiyyətli tarixi hadisədir.

Düşmənçilik toxumu səpən "erməni soyqırımı" isə xalqlar və dövlətlər arasında nifrət və ədavəti qızışdıran nəhəng bir uydurmadır. Bu yanlış yol Ermənistanı iflasa aparır. Bunu anlamayan ermənilərsə, hələ də öz riyakarlıqlarını davam etdirməkdədirlər. Davam edin, cənablar. Siz saxta göz yaşları tökməklə öz ağalarınıza nökərçiliyinizi davam etdirin. Böyük Türk Dünyası isə sülhə, tərəqqiyə və xoş gələcəyə doğru uzanan yolda uğurdan uğura, qələbədən qələbəyə addımlayacaq. 100 il öncə Çanaqqala savaşından sonra olduğu kimi!

***Böyük Türk Dünyasına şanlı zəfərlər arzusu ilə...***